**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Respublikasının Təhsil Nazirliyinin F-386 nömrəli 28.08 2020-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.**

ƏSLİ İLƏ DÜZDÜR

# BAKALAVRİAT SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 050808 – TİBB BACISI İŞİ**

**BAKI – 2020**

# BAKALAVRİAT SƏVİYYƏSİNİN 050808 – TİBB BACISI İŞİ İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **050808 – TİBB BACISI İŞİ** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə bakalavr (əsas (baza) ali tibb) hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;

- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.

**2.2. Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarınaa yiyələnməlidir:**

- Tibb bacısının peşə vəzifələri və funksiyalarını həyata keçirmək üçün ixtisası üzrə müasir nəzəri və təcrübi biliklərə;
- Tibb bacılığı fəaliyyətini peşəkar standartlara və təcrübələrə uyğun həyata keçirmək bacarığına;
- Tibb bacısı kimi fərdi və ictimai yönümlü ilkin tibb xidməti göstərmək üçün təməl, klinik və sosial elmlərə aid biliklər və bacarıqlarla yanaşı, vərdişlərə uyğun xəstə, xəstə yaxınları və cəmiyyətlə etik çərçivədə ünsiyyət qurmaq və idarə etmək bacarığına;
- Profilaktika, müalicə və reabilitasiya sahəsində fərdlərin, ailənin və cəmiyyətin səhiyyə xidməti ehtiyaclarını din, dil, irq, cins, siyasi mənsubiyyət baxımından ayrıseçkilik etmədən qiymətləndirmək üçün təməl səviyyədə nəzəri və təcrübi biliklərə və yanaşmalara;
- Tibb bacısı ixtisasına xas elmi və müasir məlumatları əldə etmək, məlumatın doğruluğunu, etibarlılığını qiymətləndirmək üçün bilik və bacarıqlara;
- Fərdi, ailə və cəmiyyət üçün tibb bacısı sahəsində nəzəri, sübuta əsaslanan və təcrübi biliklərdən istifadə edərək sistematik və ümumiləşdirici yanaşma ilə tibb bacılığı xidməti göstərmək, göstərdiyi xidmətin effektivliyini qiymətlədirmək və qeydiyyatını aparmaq bacarığına;
- Tibb bacısı sahəsində təhsil, təcrübə, tədqiqat və idarəetmədə informasiya texnologiyalarından istifadə etmək bacarığına;
- Təhsili zamanı əldə olunmuş bilik, münasibət və bacarıqların inkişaf yollarını bilmək və bunu bütün fəaliyyəti boyu davam etdirərək istifadə etmək bacarığına;
- Öz bilik və bacarıqlarının hüdudlarını bilərək, zəruri hallarda həmkarlarından və digər tibb işçilərindən müvafiq kömək istəyərək əldə etdiyi bilikləri tətbiq etməyə;
- Tibb bacısı sahəsində təhsil, təcrübə, tədqiqat və idarəetmədə insanın hüquqları və ləyaqətinə hörmət göstərmək, müvafiq qanunvericliyə, peşə dəyərlərinə və etik prinsiplərə uyğun davranmaq bacarığına;
- Tibbi heyətin, komandanın və digər disiplinlərdə əməkdaşlıq çərçivəsində işləmək bacarığına;
- Tədqiqatlarda iştirak edərək tibb bacısına aid məlumatları toplamaq məsuliyyətinə;
- Tibb xidmətinin və tibb bacısı peşəsinin inkişafına töhfə verən fəaliyyətlərdə təşəbbüs göstərərək yenilik və dəyişiklik yaratmaq bacarığına;
- Peşəsi ilə bağlı elmi mənbələri başa düşməsi, şərh etməsi və öyrəndiklərini peşə təcrübəsində istifadə etməsi üçün əvvəlcə Azərbaycan dilini və yanaşı olaraq mənbələrdə daha çox istifadə olunan ən azı bir xarici dili yetərli səviyyədə bilmək bacarığına;
- Təhlükəsiz və keyfiyyətli tibb xidmətinin təmin edilməsində və inkişaf etdirilməsində təşkilatı struktur və sistemlərə rəhbrəlik etmək bacarığına;
- Sərbəst işləmək və qərar vermək bacarığını imikaş etdirmək üçün fikirlərini şifahi və yazılı ifadə eyməyə;
- Şəxsi və peşəkar inkişafında davamlı öyrənmə bacarığına;
- Peşəkar şəxsiyyəti ilə həmkarlarına və cəmiyyətə nümunə olmaq bacarığına;
- Peşəkar fəaliyyəti zamanı tənqidi düşünmə və problem həlletmə bacarığına;
- Xəstələr, xəstə yaxınları, həmkarları və digər tibb işçiləri ilə qarşılıqlı anlaşma, etimad və hörmətə əsaslanan ixtisaslı peşəkar kommunikasiya zəmini yaratmaq bacarığına;
- Qlobal və cəmiyyət miqyasında sağlamlıq, təhlükəsizlik və ətraf mühit problemlərinə həssas yanaşmağa;

- İlkin tibb xidmətində tibb bacılığına aid işlərin planlaşdırılması, icra edilməsi, qiymətləndirilməsi və səmərəliliyinin artırılması istiqamətində bütün proseslərdə iştirak edərək dəstək olmaq bacarığına;
- Palliativ qayğı, ağrı və digər problemlərin erkən müəyyənləşdirilməsi, qiymətləndirilməsi və müalicəsi yolu ilə əzabların qarşısının alınması və aradan qaldırılması ilə həyati təhlükəsi olan problemlə üzləşən xəstələrin və onların ailələrinin həyat keyfiyyətini yaxşılaşdıran psixososial və mənəvi yanaşma bacarığına;
- Mülki müdafiənin tibb xidmətinin təşkili və fəaliyyəti məsələlərini mənimsəməyi, daxili əmək intizamı qaydalarını, əməyin mühafizəsi, təhlükəsizlik texnikası və yanğına qarşı mühafizə qayda və normaları haqqında biliklərə;

### 3. Təhsil Proqramının strukturu

3.1. **050808 – TİBB BACISI İŞİ** ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

*Cədvəl 1*

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycan tarixi**<br>*Bu fənn Azərbaycanın dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını sistemli şəkildə, xronoloji ardıcıllıqla öyrənir, Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir.* | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 15 |
| 4 | **Seçmə fənlər** *(Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.)* | |
| 4.1 | Fəlsəfə<br>Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları<br>Bioetika<br>Multikulturalizmə giriş | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi | 3 |

| | | |
|---|---|---|
| | **İxtisas fənləri** | **140** |
| 5 | **Mülki müdafiə**<br>*Bu fənn Azərbaycan Respublikasında fövqəladə halların idarə olunması, fövqəladə halların xarakteristikasını, fövqəladə hallardan əsas müdafiə üsullarını və vasitələri, fövqəladə hallar zamanı yaranmış şəraitinin qiymətləndirməsi, özünə və digər şəxslərə yardım etməyi, istehsalat proseslərində mülki müdafiə planının hazırlanması kimi məsələlərin həlləri öyrədilir* | 3 |
| 6 | **İnsan anatomiyası**<br>*Tibb bacısı təcrübəsində tələb olunan səviyyədə insanın sistematik və funksional anatomiyası, orqan və sistemlərin anatomiyası, funskiyaları, damar və sinir əlaqələri öyrədilir* | 6 |
| 7 | **Normal fiziologiya**<br>*Sağlam orqanizminin müxtəlif sistemlərinin, orqanlarının, toxumalarının və hüceyrələrinin normal işləmə mexanizmləri və onların tənzim yolları öyrədiliir.* | 6 |
| 8 | **Biokimya**<br>*Canlı sistemdəki molekulların quruluşu, metabolizmləri, bir-birilə qarşılıqlı əlaqəsi, fermentlər və vitaminlərin xüsusiyyətləri və funksiyaları haqqında təməl biliklər və onların tibb bacısı təcrübəsində tətbiq edilməsi öyrədilir* | 3 |
| 9 | **Tibbi mikrobiologiya**<br>*Mikroorqanizmlərin quruluşu, xüsusiyyətləri, fərqləndirilməsi, törətdiyi xəstəliklər, immun sistemin xüsusiyyətləri və infeksiyalar zamanı rolu haqqında məlumatlar öyrədilir* | 3 |
| 10 | **Patologiya**<br>*Hüceyrə patologiyası, ümumpatoloji proseslər (qan və limfa dövranı pozğunluqları, iltihab, immunopatoloji proseslər, kompensator-uyğunlaşma prosesləri, şişlər), insan orqanizmində patoloji proseslər zamanı baş vermiş morfoloji dəyişiklikləri, bunların patogenezi və morfogenezi, klinik-morfoloji forma və mərhələləri və ölümün bilavasitə səbəbi haqqında bilik və bacarıqlar öyrədilir.* | 6 |
| 11 | **Tibb bacısı üçün farmakologiya**<br>*Xəstəlik və patoloji proseslər zamanı müalicə və profilaktika məqsədilə istifadə olunan dərman maddələrinin təsnifat prinsipi, farmakokinetik və farmakodinamik xüsusiyyətləri, toksikologiya, farmakogenetika, farmakogenomika və toksikologiya əsas anlayışları, dərman formaları və reseptin yazılma qaydaları öyrədilir* | 3 |
| 12 | **Tibb bacılığının əsasları**<br>*Tibb bacılığının təməl fəlsəfəsini, tibb xidmətində tibb bacısının rolu və funksiyaları, tibb bacılığının inkişaf tarixi, xəstəxana şəraiti, bəzi təməl bacarıqlar və bu bacarıqları əldə etmək üçün təməl anlayışlar, prinsiplər və nəzəri biliklər öyrədilir* | 20 |
| 13 | **Tibb bacılığında menecment**<br>*İdarəetmə anlayışını, prinsiplərini öyrənərək tibb müəssisələrində tibb bacılığı xidmətini tənzimləməyi, idarəedilməsini təmin etmək məqsədilə təməl bilik və bacarıqlar öyrədilir* | 3 |
| 14 | **Təcili yardımda tibb bacılığı**<br>*Təxirəsalınmaz vəziyyətlərin, intubasiya, mərkəzi venaların kateterizasiyasının nəzəri əsasları, periferik venalara damar yolunun* | 15 |

| | | |
|---|---|---|
| | *açılması bacarıqları və təxirəsalınmaz vəziyyətlərdə ilkin yardım göstərmək öyrədilir* | |
| 15 | **Ailə təbabətində tibb bacılığı**<br>*Ailə təbabəti tibb bacılığının əsasları və tətbiqi haqqında bilik bacarıqlar qazandırılır* | 15 |
| 16 | **Daxili xəstəliklərdə tibb bacılığı**<br>*Şəxslər, ailələr və cəmiyyət üçün daxili xəstəliklərə dair nəzəri və tətbiqi biliklər, tibb bacısı kimi vahid bir anlayış və sistemli bir yanaşma ilə istifadə etmək, profilaktik səhiyyə xidmətlərini tətbiq etmək, təlim və məsləhət rollarını yerinə yetirmək, informasiya və qulluq texnologiyalarından istifadə etmək, səhiyyə heyəti ilə səmərəli əməkdaşlıq, tənqidi düşüncə öyrədilir* | 9 |
| 17 | **Mamalıq ginekologiyada tibb bacılığı**<br>*Bu dərsdə tələbəyə ailənin, qadının, dölün və yenidoğulmuşun sağlamlığının qorunması və yaxşılaşdırılması üçün zəruri bilik və bacarığı öyrədilir.* | 12 |
| 18 | **Cərrahi xəstəliklər tibb bacılığı**<br>Tələbələrə cərrahi klinikalarda əməliyyatdan əvvəl, əməliyyat müddətində və sonra uyğun və keyfiyyətli tibb bacarıqları haqqında bilik, bacarıq və təcrübə öyrədilir. | 13 |
| 19 | **Psixiatriyada tibb bacılığı**<br>Bu dərsin sonunda insanı və insan davranışlarını anlamaq əsas götürülərək psixi sağlamlığa təsir göstərən inkişaf biopsixososial dəyişiklər əsasında sağlam/ psixi sağlamlığı pozulmuş fərd,ailə və cəmiyyəti qiymətləndirə bilmək psixi sağlamlığın qorunması inkişaf etdirilməsi və yaxşılaşdırılmasına yönəlmiş psixatriya tibb bacılığı öyrədilir . | 8 |
| 20 | **Pediatriyada tibb bacılığı**<br>Uşaqların (0-18 yaş) normal böyümə və inkişaf xüsusiyyətləri,sağlamlıqda kənara çıxmalar, xəstəliklərin idarəsi,uşaq və ailənin marifləndirilməsi və izlənilməsi mövzularında zəruri bilik və bacarıqları xəstə hüququ və etik prinsiplərə əsaslanan sübutlu təbabətə uyğun öyrədilir | 15 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər[1]** | **40** |
| | **Təcrübə** | |
| ... | Təcrübə | **30** |
| | CƏMİ AKTS | **240** |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

---

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

***Qeyd:** sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;

- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:
- ixtisas kafedraları;
- müvafiq auditoriya fondu;
- elmi-tədris laboratoriyası;
- simulyasiya (mulyaj) mərkəzi
- kompüter sinfi;
- istehsalat təcrübənin keçirilməsi üçün baza müəssisələri;
- kitabxana;
- kliniki bazalar;

və s.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, özəl yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil oluna bilər.

8.3. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

8.4. İxtisasın spesifikasından asılı olaraq təcrübənin nəticələrinin qiymətləndirilməsi meyarları ali təhsil müəssisəsinin Elmi Şurası tərəfindən müəyyənləşdirilir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1 **050808 – TİBB BACISI İŞİ** ixtisası üzrə məzunlara "Tibb bacısı" ali peşə ixtisas dərəcəsi verilir. Məzunlar dövlət və özəl müəssisələrdə tibb bacısı vəzsifəsində, həmçinin dövlət və özəl tibb müəssisələrində baş tibb bacısı v böyük tibb bacısı vəzifələrində işləyə bilərlər.

9.2 Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz media resurslarında yerləşdirməlidir.

9.3 **050808 – TİBB BACISI İŞİ** ixtisası üzrə məzunlar Magistratura səviyyəsi üçün imtahanlarda iştirak etmək, tibb bacısı ixtisasının müxtəlif sahələri üzrə ixtisaslaşmaq hüququ qazanırlar

9.4 Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir

**RAZILAŞDIRILMIŞDIR:**
Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

_____________ Yaqub Piriyev

«28» 08 2020-ci il

Səhiyyə, rifah və xidmət, Əsas (baza ali) tibb təhsili ixtisasları ixtisaslar qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

_____________ prof. Gəray Gəraybəyli

27 08 2020-ci il

Əlavə 1

## Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri

| Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Məzun Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair biliklərə, Azərbaycan xalqının milli-mənəvi, mədəni-tarixi dəyərlərini ictimai həyat və fəaliyyətində tətbiq etmək və Azərbaycan dövlətinin maraqlarını qorumaq qabiliyyətinə malik olur |
| **PTN 2.** Məzun Azərbaycan Respublikasının rəsmi dövlət dili olan Azərbaycan dili ilə yanaşı ən azı bir xarici dildə işgüzar və akademik kommunikasiyaya sahib olub, bu imkandan öz peşə fəaliyyətində istifadə etmək, xarici dildə gündəlik fəaliyyəti ilə bağlı ünsiyyət qurmaq, fikrini şifahi və yazılı ifadə etmək, xəstə, xəstə yaxınları, digər tibb işçiləri, cəmiyyət, müvafiq qurumlar, media ilə yazılı və şifahi ünsiyyət qurmaq, ixtisasına aid xarici ədəbiyyatdan istifadə etmək bacarığına malik olur |
| **PTN 3.** Məzun peşəsi ilə əlaqəli elmi məlumatları toplamaq üçün sərbəst şəkildə informasiya-kommunikasiya texnologiyalarından istifadə etməyi, elektron formada yazışmalar aparmağı, əldə etidyi məlumatların və mənbələrinin dürüstlüyünü qiymətləndirməyi və elmi məlumatları peşə təcrübəsində tətbiq etməyi bacarır |
| **PTN 4.** Məzun peşəsi ilə əlaqəli qanunvericiliyi, deantologiyanı və etik qaydaları bilir, sərbəst şəkildə peşə fəaliyyəti ilə məşğul olarkən peşəsi ilə əlaqəli qanunvericiliyə, qaydalara və etik prinsiplərə riayyət etməyi bacarır |
| **PTN 5.** Məzun fərdi peşəkar inkişafını planlaşdıraraq ömürboyu təhsil prinsiplərini həyata keçirməyi, xəstələrə tətbiq edilən müayinə və müalicə prosesi zamanı baş verən kritik vəziyyətlərdə və digər zəruri hallarda həmkarlarından kömək istəməyi, lazım gəldikdə öz bilik və bacarıqlarını həmkarları və digər tibb işçiləri ilə bölüşməyi, peşəsi ilə əlaqəli maarifləndirmə işi aparmağı bacarır |
| **PTN 6.** Məzun fərdlərin, ailənin və cəmiyyətin profilaktik, terapevtik və reabilitasiya sahəsində tibbi xidmətini vahid bir yanaşma ilə təşkiletmək üçün əsas nəzəri və praktik biliklərə sahib olur |
| **PTN 7.** Məzun ixitsası ilə əlaqədar hərtərəfli tibbi qiymətləndirmə apara bilir, tibb bacılığı xidmətini planlaşdırmağı, tətbiq və idarə etməyi bacarır, ehtiyac olduqda yeni strategiya hazırlaya bilir |
| **PTN 8.** Məzun xəstə və xəstənin ailəsi üçün təlim planlaşdırır, xəstələri müayinə, müalicə və reabilitasiya prosedurları, onların əlavə təsirləri haqqında məlumatlandırmağı, xəstələrə müasir və etibarlı tibbi məlumatlar verilməsini bacarır |
| **PTN 9.** Məzun mürəkkəb problemi və həyati təhlükəsi olan xəsətlərin çeşidlənməsi zamanı həkimə kömək edir, xəsətləri izləməyi, keyfiyyətli intensiv reanimasiya tədbirləri həyata keçirməyi bacarır |
| **PTN 10.** Məzun mülki müdafiənin tibb xidmətinin təşkili və fəaliyyəti məsələlərini mənimsəyir, daxili əmək intizamı qaydalarını, əməyin mühafizəsi, təhlükəsizlik texnikası və yanğına qarşı mühafizə qayda və normaları haqqında biliklərə sahib olur |

| Fənn üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1 (Azərbaycan tarixi)** |
| 1. Azərbaycanın dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırır, bunun üçün dövlətçilik ənənələrinin keçmişi və bu günü haqqında zəruri biliyə malik olduğunu nümayiş etdirir, faktları ümumiləşdirir, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirilməsində istifadə etmək vərdişlərinə yiyələnir; |

2. Azərbaycanın dövlətçilik ənənələrinin tarixi haqqında, onun yaranması, formalaşması və inkişafı dinamikasını dövrün xüsusiyyətləri baxımından izah edir, onlar arasında səbəb və nəticə əlaqələrini təhlil edir və ona münasibət bildirir;
3. Müasir Azərbaycan dövlətçiliyinin formalaşmasına təsir edən siyasi, ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil, tədqiq və təbliğ edir;
4. Fəal vətəndaşlıq mövqeyi nümayiş etdirir, müasir Azərbaycan dövlətçılıyinin möhkəmləndirilməsi və inkişafında tarixi şəxsiyyətlərin rolunu dəyərləndirir;
5. Nəzərdə tutulan istiqamətlər üzrə əldə etdiyi bilikləri təcrübədə istifadə etmək üçün elmi – pedaqoji və metodiki təhlillər aparır, yenilikləri yaradıcılıqla təcrübəyə tətbiq edir, bilikləri və yeni texnologiyaları müxtəlif istiqamətlər üzrə praktik işlə əlaqələndirir;
6. Müasir dünyada Azərbaycan dövlətçiliyinin yeri və rolunu sistemli təhlil edir, fərziyyə və mülahizələr irəli sürür, təkliflər verir, debatlarda, diskussiyalarda, müzakirələrdə ictimai rəy formalaşdıran məsələlər ətrfında təkliflərlə çıxış edir.

**FTN 2 (Azərbaycan dilində işgüzar və akademik kommunikasiya)**

1. Təlim prosesində akademik dildə təqdimat etmək bacarığına yiyələnir.
2. Natiqlik bacarığını mənimsəmək və tətbiq etmək vərdişlərinə yiyələnir.
3. Akademik və işgüzar yazı bacarıqlarının mənimsəmək və tətbiq etmək bacarığına yiyələnir.
4. Təlim prosesində qazandığı bilikləri tətbiq etmək üçün elmi və metodik təhlillər aparılır.
5. Məqsədə uyğun seçdiyi metod və vasitələrin əhəmiyyəti əsaslandırılır və təcrübədə tətbiq edilir;
6. Təlim nailiyyətlərini qiymətləndirmək üçün müvafiq meyarlar seçilir və tətbiq edilir.

**FTN 3 (Xarici dildə işgüzar və akademik kommunikasiya)**

1. Təlim prosesində ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək bacarığına yiyələnir.
2. Gündəlik həyatda xarici dildə sərbəst ünsiyyət qurmaq bacarığına yiyələnir.
3. İşgüzar fəaliyyətdə sərbəst ünsiyyət qurmaq bacarığına yiyələnir.
4. İşgüzar fəaliyyətdə beynəlxalq idman və biznes subyektləri ilə kommunikasiyanın səmərəli şəkildə qurulmasına yiyələnir.
5. İşgüzar və akademik yazının xüsusiyyətlərini bilir, fərqli kontekstlərdə mətnləri mənimsəyir və hazırlayır;
6. Akademik və işgüzar nitqin məzmununu və quruluşunu bilir, ünsiyyət əlaqələrində istifadə edir.

FTN 4 Seçmə fənlər

**FTN 5. (Mülki müdafiə)**

1. Fövqəladə hallarda əhalinin müdafiəsinin və ərazinin mühafizəsinin əsas üsullarını, kollektiv və fərdi mühafizə vasitələrini bilir, onlardan istifadə qaydalarını şərh edir.
2. Fövqəladə hallar zamanı rabitə və xəbərdarlıq sistemlərinin vacibliyini bilir və onlardan istifadə qaydalarını nümayiş etdirir.
3. Fövqəladə hallarda evdə, küçədə, müəssisədə davranış qaydalarını bilir və ona əməl edir.
4. Fövqəladə hallarda tənəffüs üzvlərinin qorunması üçün sadə vasitələrin necə hazırlanması və istifadə qaydalarını bilir və şərh edir.
5. Fövqəlada hallarda işçi personalın təxliyəsini təşkil edir.
6. Fövqəladə hallarla bağlı maarifləndirici işlər təşkil edir.

**FTN 6 (İnsan anatomiyası və tibbi terminologiya)**

1. İnsan skeletinin quruluşu və klinik xüsusiyyətləri haqqında ümumi məlumata sahib olur;
2. Orqanizmi təşkil edən aparat və sistemləri, bu aparat və sistemlərin də təşəkkül tapdığı orqanların quruluşu, topoqrafiyası barəsində nəzəri biliklərə sahib olur;

3. Orqanizmi təşkil edən aparat və sistemləri, bu aparat və sistemlərin də təşəkkül tapdığı orqanların damar-sinir münasibətləri barəsində bilik və bacarəqlara sahib olur;
4. Orqanizmni təşkil edən aparat və sistemləri, bu aparat və sistemlərin də təşəkkül tapdığı orqanları, onların əsas damar və sinirlərini meyit və meyit preparatları üzərində müstəqil surətdə müəyyən edir;
5. Orqanizmi təşkil edən aparat və sistemləri, bu aparat və sistemlərin də təşəkkül tapdığı orqanların quruluşu və topoqrafiyası ilə klinik əlaqələri müəyyən edə bilir;
6. Anatomik terminlərin təhsil aldığı dildə və latın dilində düzgün qaydada istifadə edir
7. Ümumi sistem funksiyalarını tibb bacısı təcrübəsi ilə tələb olunan uyğunluqda bilir;

**FTN 7. (Fiziologiya)**

1. Sağlam orqanizmi təşkil edən hüceyrə, toxuma, orqan və sistemlərin funksiyalarını bilir
2. Orqanizmi təşkil edən hüceyrə, toxuma, orqan və sistemlərin işləmə mexanizmlərini izah edir
3. Orqanizmi təşkil edən hüceyrə, toxuma, orqan və sistemlər arasında qarşılıqlı əlaqə və təsirləri bilir
4. Orqanizmin vahid sistem olaraq ətraf mühitlə əlaqəsini izah edir
5. Orqanizmdə hüceyrə, toxuma, orqan və sistemlərdə funksional pozulmalar zamanı baş verən patoloji proseslər haqqında anlayışı olur
6. Homeostazın qorunub saxlanması üçün funksional sistemlərin vacibliyini.

**FTN 8. (Biokimya)**

1. Canlı sistemdə molekulların quruluşunu, metabolizmlərini və bir-birilə qarşılıqlı əlaqəsini bilir
2. Zülalların biokimyası, həzmi və metabolizmini bilir
3. Karbohidratların biokimyası, həzmi və metabolizmini bilir
4. Lipidlərin biokimyası, həzmi və metabolizmini bilir
5. Hormon, vitamin və koenzimlərin metabolizmini bilir
6. Metabolizm ilə əlaqəli xəstəlikləri və biokimyəvi analizlərin nəticələrini qiymətləndirir

**FTN 9. (Tibbi mikrobiologiya)**

1. Mikroorqanizmlərin təsnifatını və ümumi xüsusiyyətləri haqqında məlumatları bilir
2. Bakteriya, göbələk, virus infeksiyaları və müalicə prinsiplərini bilir
3. İmmunologiya haqqında təməl məlumatları bilir
4. Vaksinlər, immun zərdablar haqqında biliklərə sahib olur, müvafiq qaydalara uyğun olaraq immunizasiya aparılması yollarını bilir
5. Xəstəxanadaxili infeksiyalar və qarşısının alınması yollarını bilir
6. Mikroblarla kontaminasiya olmuş materiallar haqqında məlumatlara sahib olur və kontaminasiya ehtimalı olan şəraitdə işləməyi bacarır bacarır

**FTN 10. (Patologiya)**

1. Müxtəlif distrofik proseslər zamanı hüceyrə və toxumalarda baş verən struktur dəyişiklikləri bilir.
2. Qan dövranı pozğunluqlarının təsnifatını, onların struktur əsaslarını və patogenetik xüsusiyyətlərini bilir.
3. İltihabın təsnifatını, morfoloji əlamətlərini, spesifik iltihabi xəstəliklərin morfo-funksional xüsusiyyətlərini bilir.
4. Yaraların sağalma mexanizmlərinin morfoloji əsaslarını bilir.
5. Şişlərin təsnifatını və ayrı-ayrı toxumaların şişlərinin patomorfoloji xüsusiyyətlərini bilir.
6. Orqanizmi təşkil edən ayrı-ayrı sistemlərin xəstəliklərinin etio-patogenetik və morfoloji xüsusiyyətlərini bilir.
7. Patoloji anatomiyada istifadə olunan əsas makroskopik və mikroskopik müayinə metodlarını haqqında məlumatı bilir.

8. Parenximatoz, mezenximal və qarışıq distrofiyalar zamanı hüceyrə və toxumalarda meydana çıxan patomorfoloji dəyişikliklərin makro- və mikroskopik əlamətlərini ayırmağı bacarır.
9. Müxtəlif ümumpatoloji proseslər (qan və limfa dövranı pozğunluqları, kəskin və xroniki iltihab, xoş- və bədxassəli şişlər) zamanı orqan və toxumalarda yaranan dəyişikliklərin morfoloji diaqnostikasını bacarır.

**FTN 11. (Tibb bacısı üçün farmakologiya)**

1. Farmakologiya ilə əlaqəli əsas anlayışları, farmakokinetik və farmakodinamik terminləri bilir;
2. Dərman xammalı, dərman maddəsi və dərman forması, dərmanların nomenklaturası anlayışlarını müəyyənləşdirə bilir;
3. Dərman maddələrinin təsnifatının əsas prinsiplərini bilir;
4. Dərmanların orqanizm, orqan, hüceyrə və molekullar səviyyəsində təsirini analiz edə bilir;
5. Farmakokinetik və farmakodinamik olaraq dərman təsirlərini müqayisə etməyi bacarır;
6. Dərman terapiyasının aparılmasına müxtəlif amillərin (cins, çəki, yaş, genetik xüsusiyyətlər, yanaşı patologiya, digər dərmanların istifadəsi və s.) təsirini nəzərə ala bilir;
7. Dərmanların ümumi farmakoloji xüsusiyyətlərini, bu dərmanların əlavə təsirlərini, istifadəsinə göstəriş və əks göstərişləri bilir;
8. Tolerantlıq, dərman asılılığını bilir və onların növlərini müqayisə edə bilir;
9. Dərmanların qarşılıqlı təsiri və uyuşmazlığı müəyyənləşdirə bilir;
10. Dərman toksikologiyası və kəskin dərman zəhərlənməsi üçün ilk yardım prinsipləri haqqında təsəvvürə sahib ola bilir

**FTN 12. (Tibb bacılığının əsasları)**

1. Tibb bacısı peşəsi ilə əlaqəli təməl prinsipləri bilir
2. Tibb bacısı xidmətinin təməl anlayışlarını və qulluq üsullarını bilir və tətbiq edir
3. Manikenlər üzərində tibb bacısına aid təməl bacarıqları həyata keçirir
4. Professor-müəllim heyətinin müşahidəsində tibb bacısına aid təməl bacarıqları xəstə üzərində həyata keçirir
5. Tibb bacısı xidməti göstərərkən fərdlərin hüquqlarına hörmətlə yanaşmağı bacarır
6. Tibb bacısı xidmətinin ehtiyac və problemlərini müəyyən edə bilir
7. Tibb bacısı xidmətini göstərərkən digər disiplinlərlə əməkdaşlıq edə bilir

**FTN 13. (Tibb bacılığında menecment)**

1. İdarəçi tibb bacısının rol və funksiyalarını bilir
2. İdarətmə prosesini anlayır
3. Tibb bacısı idarəçiliyində idarəetmə prosesini bilir
4. İdarəetmə sistemində nəticələri təqib və şərh edir, qiymətləndirir
5. Tibb bacılarının spesifik sahələrə uyğun funksional iş bölgüsü apara bilir
6. Xəstəyə qulluq edilməsi prosesinə uyğun olaraq tibb bacısı sayını hesablaya bilir
7. İlkin tibb xidməti müəssisələrində xəstəyə qulluq və xidməti təşkil edir
8. Tibb bacılarının fəaliyyətini qiymətləndirmək üçün müvafiq üsulları müəyyən edə bilir

**FTN 14. (Təcili yardımda tibb bacılığı)**

1. Təxirəsalınmaz vəziyyətlərin nəzəri əsaslarını bilir və ilkin yardım göstərməyi bacarır;
2. Mərkəzi venaların kateterizasiyasının nəzəri əsaslarını sadalayır və periferik venalara damar yolunun açılmasını təmin edir;və
3. Təxirəsalınmaz vəziyyətlərdə xəstədən və xəstə yaxınlarından anamnez toplamağı bacarır;
4. Endotraxeal intubasiyanın nəzəri əsaslarını sadalayır və təxirəsalınmaz vəziyyətlərdə tənəffüs yollarının keçiriciliyini təmin edir;

5. Uşaq və yetkin xəstə qruplarında təməl həyat dəstəyini təmin edir;
6. Hemodinamik monitorinqi və EKG çəkilməsini bacarır
7. Travmalı xəstələrin ağırlıq dərəcəsinə görə qiymətləndirilməsini apara bilir, travma ilə təcili yardıma müraciət edən xəstələrdə həyatı əhəmiyyətli təhlükələri sadalaya bilir, bu xəstələrin ilkin qiymətləndirilməsini və lazımi ilkin yardımı göstərə bilir, travmalı xəstələrdə intubasiyaya göstərişləri sadalaya bilir, qan dövranını qiymətləndirərək qan dövranının pozulması zamanı müdaxilə edə bilir
8. Sidik yolu kateterini yerləşdirməyi və diurezi izləməyi bacarır

**FTN 15. (Ailə təbabətində tibb bacılığı)**

1. İlkin tibb xidməti müəssisələrində, digər dövlət və özəl müəssisələrində tibb bacılarının səlahiyyət, tapşırıq və məsuliyyətlərini müşahidə edərək qiymətləndirə bilir;
2. Tibbi heyətin tərkibində səlahiyyətlərini bilərək tibb bacılığı yanaşması ilə profilaktik və müalicə tədbirlərini icra edir;
3. Fərdlər, ailə və əhaliyə peşəsinə uyğun etik prinsiplərlə və kompleks xidmət göstərmək və nəticələrini qiymətləndirməyi bacarır;
4. Fərdlər, ailə və cəmiyyət arasında tibbi maarifləndirmə aparır və səlahiyyəti çərçivəsində məsləhət verə bilir;
5. Fərdlər, ailə və əhali qruplarında diaqnostik prosedurlarda iştirak edir, planlaşdırma aparır, prosedurları tətbiq edir və qiymətləndirir;
6. Xidmət verdiyi fərd, ailə və əhali qruplarında tibbi ehtiyaclara uyğun digər müəssisələrə köçürülməsində iştirak edir və izləyir;
7. Özünü qiymətləndirmə və məlumat mənbələri əsasında mövcud bilik və bacarıqları inkişaf etdirir;
8. Peşəkar tibb bacısı kimi sərbəst formada bilik və bacarıqlarını tətbiq edir

**FTN 16. (Daxili xəstəliklərdə tibb bacılığı)**

1. Daxili xəstəliklərdə tibb bacılığı ilə əlaqədar nəzəri və tətbiqi biliklərə sahibdir;
2. Fərd, ailə və əhaliyə terapevtik xəstəliklərlə bağlı nəzəri, sübutlu təbabətə istinad edən və tətbiqi biliklərdən istifadə edərək, kompleks bir anlayışla və sistematik bir yanaşma ilə tibb bacılığı xidməti verir, verdiyi xidmətin təsirini dəyərləndirir və qeydə alır;
3. Fərd, ailə və əhaliyə terapevtik xəstəliklərlə bağlı nəzəri, sübutlu təbabətə istinad edən və tətbiqi biliklərdən istifadə edərək, kompleks bir anlayışla və sistematik bir yanaşma ilə tədris və məsləhətçi rollarını həyata keçirir;
4. Tibb bacılığı fəaliyyəti sahələrində (tədris, tətbiq, araşdırma və idarəetmə) müasir texnologiyadan istifadə edə bilir;
5. Peşə məsuliyyəti təfəkkürü ilə tibbi heyət və digər işçilər ilə əməkdaşlıq edir; qanunvericilik, peşə dəyərləri və etik qaydalara uyğun davranır;
6. Fərdi və peşə fəaliyyəti sahələrində tənqidi düşünmə bacarığını və elmi əsaslı problem həlletmə yanaşmasını istifadə edir

**FTN 17. (Mamalıq ginekologiyada tibb bacılığı)**

1. Qadın və reproduktiv sağlamlıqla əlaqəli əsas anlayışları, milli və beynəlxalq göstəriciləri izah edir;
2. Qadının inkişaf dövrlərini sadalayır, dövrlərinə uyğun lazım olan tibbi ehtiyacları müəyyən edir və ehtiyaclara uyğun tibb bacısı xidmətini göstərir;
3. Həyat dövrlərinə görə qadının cinsi/reproduktiv sağlamlığı və xəstəlikləri ilə əlaqəli sübuta əsaslanan nəzəri və tətbiqi biliklərə sahibdir;
4. Qadının cinsi/ reproduktiv sağlamlığının qorunması, inkişaf etdirilməsi və sağlamlığın pozulduğu hallarda müalicəsi və reabilitasyası üçün problem həlletmə üsullarını istifadə edərək tibb bacılığı xidmətini təşkil edir, qiymətləndirir və qeydiyyatını aparır;
5. Qadının cinsi/reproduktiv sağlamlığı istiqamətində insan hüquq və ləyaqətinə hörmət edir, peşə ləyaqəti və etikasına uyğun davranır;

6. Qadın sağlamlığı və xəstəlikləri sahəsində tibb bacısına aid vəzifələri icra edir;
7. Hamiləlik başlayandan doğuşa qədər bütün dövlərdə normal və riskli hamilə qadına qulluq mövzusunda özünə və ailəsinə məsləhətlər verir;
8. Doğuş zamanı qadının ehtiyaclarını müəyyən edir və ehtiyaca uyğun qulluq planı hazırlayır;
9. Qadının çox rast gəlinən ginekoloji problemlərinə uyğun tədbirləri həyata keçirir;
10. Qadına qarşı zorakılıq anlayışını izah edir, cəmiyyətdə cinsi ayrıseçkilik mövzusunda maarifləndirmə aparır

**FTN 18.(Cərrahi xəstəliklərdə tibb bacılığı)**

1. Cərrahiyyədə tibb bacılığına aid nəzəri bilik və bacarıqlara sahib olur;
2. Cərrahiyyədə istifadə olunan alət, ləvazimatları tanıyır, onların istifadə sahəsini bilir və istifadə etməyi bacarır;
3. Cərrahiyyədə tibb bacılığına aid bilik və bacarıqları təcrübədə tətbiq edir;
4. Cərrahiyyədə tibb bacılığına aid elmi və fundamental məlumatları əldə edir, məlumatın düzgünlüyünü, dəqiqliyini və etibarlılığını qiymətləndirir;
5. Cərrahiyyədə tibb bacılığına aid nəzəri, sübutlu məlumatlardan istifadə edərək, bütün bir anlayış və sistematik yanaşma ilə tibb bacısı işini təşkil edir, gördüyü fəaliyyətin effektivliyini qiymətləndirir və qeydiyyatını aparır;
6. Cərrahiyyədə tibb bacılığı sahəsində insan hüquqları və ləyaqətinə hörmət edir, peşə ləyaqəti və etikasına uyğun davranır;
7. Xəstənin özünə qulluq edə bilməsini təmin etmək üçün effektli məsləhətlər verir;
8. Fərdi və cərrahi tibb bacılığı sahələrində tənqidi düşünmə qabiliyyətini və elmi problem həlletmə qabiliyyətini isitfadə edir

**FTN 19. (Psixiatriyada tibb bacılığı)**

1. Psixi sağlamlıq anlayışını, insanın psixi sağlamlığına təsir edən amilləri, psixi sağlamlığın qorunmasında tibb bacılarının rolunu bilir;
2. Psixi sağlamlıq və pozuntular ilə əlaqəli əsas anlayışlara və nəzəri biliklərə sahibdir;
3. Psixi sağlamlıq və xəstəliklər sahəsində tibb bacısılığının məqsəd, vəzifələri, prinsiplərini, standartlarını bilir;
4. Dünyada və ölkəmizdə fərdlərin, ailələrin və əhalinin psixi sağlamlıq profilini bilir;
5. Psixi sağlamlığın qorunması, inkişaf etdirilməsi üçün, eləcə də pozulması halalrında qulluq və reabilitasiyaya aid bilik və bacarıqlara sahibdir;
6. Psixi pozuntuların davranış təzahürlərini bilir və müəyyən edir;
7. Psixi pozuntuları olan xəstələrin problemlərini müəyyən edib bu problemlərin həlli istiqmətində müdaxilələri uyğun tibb bacısı modelinə uyğun tətbiq edir;
8. Psixi xəstəliklərin müalicəsinə aid bilik və bacarıqlara sahibdir;

**FTN 20. (Pediatriyada tibb bacılığı)**

1. Tibb xidmətinin hər səviyyəsində pediatrik tibb bacısının rol və vəzifələrini bilir;
2. Uşaqlıq dövrünün yaş qurplarını bilir;
3. Uşaq yaş qruplarına uyğun zehni və psixososial inkişafa yanaşmanı bilir;
4. Uşaqlarda psixo-motor inkişafı qiymətləndirməyi bacarır;
5. Normal və riskli yenidoğulmuşların xüsusiyyətlərini bilir, normal və riskli yenidoğulmuşların ehtiyaclarını təmin edir;
6. Uşaqlıq dövründə çox rast gəlinən sağlamlıq problemlərini bilir;
7. Uşaq və ailənin təlim ehtiyaclarına uyğun təlim planı hazırlayır;
8. Su elektrolit müvazinətinin əhəmiyyətini bilir və su-elektrolit müvazinətinin pozulmaması üçün lazım olan tibb bacısı müdaxilələrini tətbiq edir;

9. Uşağın qidalanmasının əhəmiyyətini bilir;
10. Uşaq sağlamlığını inkişaf etdirmək və qorumaq istiqamətində fəaliyyətləri bilir və həyata keçirir;
11. Uşaqların sağlamlıq problemlərinə uyğun tibb bacısına aid müdaxilələri tətbiq edir;
12. Uşaqlarda çox rast gəlinən qəza və zəhərlənmələri bilir, ona uyğun ilkin yardım müdaxilələrini bacarır;
13. Uşağın və ailənin tibb bacılığı xidmətlərində insanın hüquq və ləyaqətinə hörmət edir, peşə ləyaqətinə və etikasına uyğun davranır;
14. Digər səhiyyə müəssisələri ilə əməkdaşlıq edə bilir;

Əlavə 2

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisasın Təhsil Proqramının və hər fənn üzrə təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyən etməlidir.

| | | Proqramın təlim nəticələri | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Blokun adı** | **Fənlərin adı** | **PTN 1** | **PTN 2** | **PTN 3** | **PTN 4** | **PTN 5** | **PTN 6** | **PTN 7** | **PTN 8** | **PTN 9** | **PTN 10** | | |
| **Humanitar fənlər** | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | | X | | | | | | | | | | |
| | Azərbaycan tarixi | X | | | | | | | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | | | |
| | Seçmə fənlər | | | X | X | | | | | | X | | |
| **İxtisas fənləri** | Mülkü müdafiə | | | | | | | | | | X | | |
| | İnsan anatomiyası və tibbi terminologiya | | | | | | X | | | | | | |
| | Normal fiziologiya | | | | | | X | | | | | | |
| | Biokimya | | | | | | X | | | | | | |
| | Tibbi mikrobiologiya | | | | | | X | | | | | | |
| | Patologiya | | | | | | X | | | | | | |
| | Tibb bacısı üçün farmakologiya | | | | | | X | | | | | | |
| | Tibb bacılığının əsasları | | | | | X | X | X | X | | | | |
| | Tibb bacılığında menecment | | | | X | X | X | X | | | | | |
| | Təcili yardımda tibb bacılığı | | | | | | X | | X | X | | | |
| | Ailə təbabətində tibb bacılığı | | | | | | X | | X | | | | |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Daxili xəstəliklərdə tibb bacılığı | | | | | | X | | X | | | | |
| | Mamalıq ginekologiyada tibb bacılığı | | | | | | X | | X | | | | |
| | Cərrahi xəstəliklərdə tibb bacılığı | | | | | | X | | X | X | | | |
| | Psixiatriyada tibb bacılığı | | | | | | X | | X | | | | |
| | Pediatriyada tibb bacılığı | | | | | | X | | X | | | | |
| **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər** | | | | X | X | X | X | | X | X | | | |

Əlavə 3

**Fənnin təlim nəticələrinə nail olmaq məqsədilə istifadə olunan təlim və öyrənmə metodları və qiymətləndirmə üsulları (*Nümunə*)**

| Fənnin adı | Təlim nəticələri | Hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları | Hər bir təlim nəticəsi üçün istifadə olunan qiymətləndirmə üsulları |
|---|---|---|---|
| **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya** | 1. Təlim prosesində akademik dildə təqdimat etmək bacarığına yiyələnir. | 1. mühazirə, seminarlar, praktiki tapşırıqlar; video və audio mühazirələr; qrup qiymətləndirməsi; ekspert metodu; | - yazılı tapşırıqlar;<br>- test tapşırıqları<br>- şifahi təqdimatlar;<br>- frontal sorğu;<br>- qrup şəklində və özünü qiymətləndirmə |
| | 2. Natiqlik bacarığını mənimsəmək və tətbiq etmək vərdişlərinə yiyələnir. | 2. mühazirə, seminarlar, praktiki tapşırıqlar; video və audio mühazirələr; qrup qiymətləndirməsi; ekspert metodu; | - yazılı tapşırıqlar;<br>- test tapşırıqları<br>- şifahi təqdimatlar;<br>- frontal sorğu;<br>- qrup şəklində və özünü qiymətləndirmə |
| | 3. Akademik və işgüzar yazı bacarıqlarının mənimsəmək və tətbiq etmək bacarığına yiyələnir. | 3. mühazirə, seminarlar, praktiki tapşırıqlar; video və audio mü-hazirələr qrup qiymətləndir-məsi; ekspert metodu; | - yazılı tapşırıqlar;<br>- test tapşırıqları<br>- şifahi təqdimatlar;<br>- frontal sorğu;<br>- qrup şəklində və özünü qiymətləndirmə |
| | 4. Təlim prosesində qazandığı bilikləri tətbiq etmək üçün elmi və metodik təhlillər aparılır. | 4. mühazirə, seminarlar, praktiki tapşırıqlar; video və audio mü-hazirələr; qrup qiymətləndir-məsi; ekspert metodu; | - yazılı tapşırıqlar;<br>- test tapşırıqları<br>- şifahi təqdimatlar;<br>- frontal sorğu;<br>- qrup şəklində və özünü qiymətləndirmə |
| | 5. Məqsədə uyğun seçdiyi metod və vasitələrin əhəmiyyəti əsaslandırılır və təcrübədə tətbiq edilir. | 5. mühazirə, seminarlar, praktiki tapşırıqlar; video və audio mü-hazirələr; qrup qiymətləndir-məsi; ekspert metodu; | - yazılı tapşırıqlar;<br>- test tapşırıqları<br>- şifahi təqdimatlar;<br>- frontal sorğu,<br>- qrup şəklində və özünü qiymətləndirmə |
| | 6. Təlim nailiyyətlərini qiymətləndirmək üçün müvafiq meyarlar seçilir və tətbiq edilir. | 6. mühazirə, seminarlar, praktiki tapşırıqlar; video və audio mü-hazirələr; qrup qiymətləndir-məsi; ekspert metodu; | - yazılı tapşırıqlar;<br>- test tapşırıqları<br>- şifahi təqdimatlar;<br>- frontal sorğu;<br>- qrup şəklində və özünü qiymətləndirmə |